№ 62 (1190) 2 aprel - 4 aprel 2016-cı il

(əvvəli ötən saylarımızda)

### *Sosial müdafiənin gücləndirilməsi tədbirləri*

**Ötən müddət ərzində əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə rayonda sosial yardıma ehtiyacı olan insanların müəyyənləşdirilməsi, onlara ünvanlı sosial yardımın verilməsi daim diqqət mərkəzində saxlanılmışdır.**

Hesabat ilində əhaliyə göstərilən müxtəlif xidmət növlərinin yaxşılaşdırılması məqsədi ilə bu ilin iyul ayında "ASAN xidmət"in səyyar qrupunun 15 gün ərzində Şamaxı şəhərində olması, əhaliyə yüksək səviyyədə şəffaf xidmətin təşkil edilməsi Şamaxı və Ağsu rayonlarının sakinləri tərəfindən razılıq hissi ilə qarşılanmışdır.

Əhaliyə göstərilən nəqliyyat, poçt, rabitə və məişət xidmətlərinin həcmi və səviyyəsi yüksəlmişdir. Ötən il ərzində



# ŞAMAXI: HARDAN BAŞLANIR VƏTƏN?



2015-ci ildə rayon üzrə 1148 ailənin 5190 üzvünə 172,2 min manat ünvanlı sosial yardım verilmişdir. İl ərzində aztəminatlı təbəqələrə, əlil və şəhid ailələrinə daxili imkanlar hesabına kömək olunmuş, pensiya və müavinətlər əhaliyə vaxtında çatdırılmışdır. 2015-ci ildə 2 nəfər Qarabağ müharibəsi əlili və 2 nəfər şəhid ailəsi rayon İcra Hakimiyyətində güzəştli mənzil növbəsinə götürülmüşdür. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə 2013-cü ildə Şamaxı şəhərində tikintisinə başlanılmış Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 36 mənzilli yaşayış binasının tikintisi 2015-ci ildə davam etdirilmişdir. Binanın bu il istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə rayonun qəsəbə və kəndlərində bu kateqoriyadan olan insanlara dövlət tərəfindən fərdi mənzillərin tikintisi üçün torpaq sahələri ayrılmışdır.

Şamaxı Sərnişin Servis MMC tərəfindən əhaliyə göstərilən nəqliyyat xidmətinin keyfiyyəti xeyli yaxşılaşdırılmışdır.

Rayon üzrə geniş zolaqlı internet xidmətindən istifadə edənlərin sayı 990-a çatdırılmışdır. Şəhərin 25A yaşayış massivində 640, 48A yaşayış massivində isə 320 nömrə tutumu olan elektron ATS-lər montaj edilərək istifadəyə verilmişdir. Abunəçilərin genişzolaqlı internet xidmətindən rahat və sürətli istifadə etmək məqsədi ilə yeni EATS-də DSLAM avadanlığı quraşdırılmışdır. Rayonun Sabir EATS-nin əhatə dairəsindən olan Çıraqlı və Həmyəli yaşayış sahələrinə Muğanlı EATS-nin əhatə dairəsindən olan Şirvan kəndlərinin telefonlaşdırılması üçün fibroptik kabel buraxılmış və hər 3 yaşayış məntələrində EATS quraşdırılmışdır. Şərədil, Çıraqlı və Həmyəli yaşayış məntəqələrində olan əhali tam telefonla və genişzolaqlı internet xidməti ilə təmin olunmuşdur. Mərkəzi EATS-nin Şəhriyar, A.Səhhət, H.Əliyev küçələrindəki və eləcə də rayonun Çuxuryurd, Cabanı, Quşçu, Mirikənd və Mərzəndiyə EATS-nin kabelləri təmir edilmişdir. Hesabat ilində rayon İcra Hakimiyyəti başçısının Sabir, Mədrəsə, Göylər, Çuxuryurd, Qızmeydan, Nağaraxana, Bağırlı, Mirikənd, İkinci Cabanı və Çarhan inzibati ərazi dairələri üzrə nümayəndəliklərində yaradılmış operativ idarəetmə məkəzləri öz işlərini davam etdirmiş və bu sahədə əlavə tədbirlər həyata keçirilir.

2010-cu ildə yaradılmış "Şamaxı Təmiz şəhər" MMC əhaliyə məişət xidməti gostərir. Yeni yaradılan cəmiyyət tərəfindən vaxtlı-vaxtında şəhərdəki fərdi yaşayış evlərinin, kommunal binaların, idarə və müəssisələrin, ticarət və xidmət obyektlərinin məişət tullantıları yığışdırılır, rayon mərkəzinin təmizliyi xüsusi diqqət mərkəzində saxlanılır.

### *Dövlət Proqramının icrası uğurla davam edir*

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar 2015-ci ildə həyata keçirilən tədbirlər nəticəsində əhalinin elektrik enerjisi, təbii qazla, istilik və içməli su təminatının yaxşılaşdırılması istiqamətində xeyli işlər görülmüşdür.

2015-ci il ərzində rayonda "Azərişıq" və Şamaxı Elektrik Şəbəkəsi tərəfindən müxtəlif güclü transformator yarımstansiyalarında 13 km elektrik hava xətləri SİP kabellə, 10 kv-luq elektrik hava xətlərindəki 568 ədəd istismara yararsız dayaq və 41,6 km naqil yenisi ilə əvəz edilmişdir. Bundan əlavə 04 kv-luq elektrik verilişi xətlərində 950 ədəd istismara yararsız dayaq, 5,8 km naqil yenisi ilə əvəz olunmuş, 23 ədəd yeni trasfarmator məntəqəsi quraşdırılmışdır, 2 ədəd yanmış transformator təmir olunaraq öz yerlərində quraşdırılmış və 55 ədəd 10/0,4 kv-luq transformator məntəqəsi cari təmir olunmuşdur. Rayon ərazisində 123 ədəd dəmir dayaq boyanmış, 355 ədəd sayğac dəyişdirilmiş və 274 ədəd yeni abonentlərə sayğac quraşdırılmışdır.

> **"Azərbaycanın bugünkü inkişafı, Azərbaycandakı bugünkü həyat səviyyəsi bizim gördüyümüz böyük işlərdən xəbər verir. Biz hamımız birlikdə Azərbaycanı daha da gözəlləşdirmək və Azərbaycan insanının bütün problemlərini çözmək üçün əlbir olmalıyıq. Məhz bizim birliyimiz digər problemlərimizin də tezliklə aradan qaldırılmasına öz töhfəsini verəcək".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

2015-ci il ərzində rayon ərazisində yeni qazlaşma, təmir bərpa və əsaslı təmir işləri davam etdirilmişdir. Belə ki, ötən dövr ərzində şəhərin 48A məhəlləsində və rayonun Dağ Bağırlı, Nüydi, Saqiyan, Mərzəndiyə, Yenikənd, Şirvan və Avaxıl kəndlərinə təbii qaz verilmişdir. Ötən il ərzində 261 ədəd sayğac yenisi ilə əvəz edilmiş, 6468 ədəd sızma aradan qaldırılmış 486 ədəd məişət qaz sayğacı həyətlərdən küçəyə çıxarılmışdır. Hazırda işlər davam etdirilir. İstehlakçıların və əhali abonentlərinin fasiləsiz, təhlükəsiz və stabil təbii qazla təmin olunması məqsədilə şəhər və kəndlərdə qaz kəmərlərinin üzərində 19 ədəd qaz tənzimləyiciləri quraşdırılmışdır.

Şəhərin Bakı, Füzuli, Nizami, A.Məmmədağa, M.Bayramov, V.Bayramov, İ.Qayıbov, A.Quliyev və Y.Kələntərli küçələrində istismar müddətini başa vurmuş 2764 p/m müxtəlif diametrli qaz xətləri yenisi ilə əvəz edilmişdir. Hazırda rayonun 41 yaşayış massivində 17710 abonent təbii qazla təmin olunur ki, bu da rayonda olan 21190 təsərrüfatın 83,6 faizini təşkil edir.

(ardı gələn sayımızda)

***Məzahir ƏHMƏDOĞLU***